*2021-ci il aprelin 12-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Hərbi Qənimətlər Parkının təntənəli açılış mərasimi keçirilib*

# Tarixi Qələbəmizin əbədiləşən təcəssümü:

# Hərbi Qənimətlər Parkı

**(əvvəli 1-ci səhifədə)**

Həmin məkanlara nəzər saldıqda Vətənə və millətə bağlılıqla yaşayan hər bir azərbaycanlının qəlbində sonsuz iftixar duyğusu baş qaldırır. Belə yerlərdən biri Prezident İlham Əliyevin təşəbbüsü ilə salınan Hərbi Qənimətlər Parkıdır. Dövlət başçısı 2021-ci il aprelin 12-də Parkın açılışında iştirak edib. Ölkə başçısı deyib ki, Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü, iradəsini görəcək. Qeyd edək ki, tarixi əhəmiyyət daşıyan Hərbi Qənimətlər Parkı, Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm qələbəni və uzun illər işğal siyasəti aparan Ermənistanın rüsvayçı məğlubiyyətinin əyani nümunəsidir. Parkın salınması xalqımızın və dövlətimizin sabahı olan gənc nəslin milli dəyərlər ruhunda, vətənə sədaqət prinsipləri əsasında formalaşması baxımından da son dərəcə vacibdir.

Uzun illər ərzində erməni təbliğat maşını bir mif üzərində qurulmuşdu. Guya erməni silahlı birləşmələri tankları ilə Bakıya qədər irəliləyəcək, Azərbaycanı zəbt edəcək və özlərinin xəyal etdikləri "böyük Ermənistan" ideyasını həyata keçirəcəklər. Bu cür zehniyyət siyasi dairələrlə yanaşı, erməni cəmiyyətin müəyyən təbəqələrinində də formalaşmışdı. Ermənistanın silahlandırılmasına, xarici havadarlarının dəstəyinə güvənən haylar özlərini bölgədə "məğlubedilməz ordu" kimi təqdim etməyə çalışırdılar. Lakin zaman və reallıq tamamilə fərqli bir mənzərə ortaya çıxardı. Ermənilərin "Bakıya tankla gəlmək" arzusu isə elə onların tanklarının Hərbi Qənimətlər Parkında sərgilənməsi ilə son nöqtəsini tapdı. Bu gün Bakının mərkəzində yerləşən Hərbi Qənimətlər Parkı həmin təbliğatın necə rəzil şəkildə çökdüyünü, Azərbaycanın real gücünü və ordusunun əzmini simvolizə edən canlı bir muzeydir. Burada ziyarətçilər Ermənistan ordusunun məhv edilmiş texnikasını, atılmış silahlarını, panika içində tərk etdiyi sursatları görə bilərlər.

Parkda ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimət kimi nümayiş olunur.





Zəfər paradının ən unudulmaz və simvolik tərtibatlarından biri Azərbaycan Ordusunun azad edilmiş ərazilərdə düşməndən əldə etdiyi 2000-dən artıq nəqliyyat vasitəsinin dövlət nömrə nişanlarından hazırlanmış lövhə də park ərazisindədir. Hərbi Qənimətlər Parkının açılışında lövhənin qarşısında çıxış edən Prezident İlham Əliyev məlumat verərək demişdi ki, Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər: "Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb. Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya, Ermənistanın məğlubedilməz ordusu var...". Dövlət başçısı əlavə edib ki, biz bunu unutmamışıq və bu lövhə erməni fərariliyinin təzahürüdür: "...bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülmüşdür. Hələ müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik".

Hərbi Qənimətlər Parkında Şuşaya atılmış, Ermənistanın hərbi cinayətinin sübutu olan "İskəndər M" raketinin qalıqları da var. Hansı ki, ermənilər Şuşa azad olunduqdan sonra bu raketlə Azərbaycanın qədim şəhərini məhv etməyə çalışıblar. Bu, erməni vəhşiliyinin növbəti əyani sübutudur. Nümayiş etdirilən qənimətlər sırasında KUB zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnika da var. Onlar saz vəziyyətdədir. Düşmənin 150-dək ağır texnikası, "T-72" tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və digər eksponatları da bu sıraya daxil etmək olar. Həmçinin parkın ərazisindəki videozalda Azərbaycan Prezidentinin qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr nümayiş etdirilir. Parkın ərazisindəki hər bir element demək olar nadirdir. Məsələn, buradakı oturacaqların alt hissəsi qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb. Parkın ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərəçarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur.

Parkda nümayiş etdirilən Ermənistan silahlı qüvvələrinin bütün hərbi birləşmələrinə aid qismən işlək və ya tamamilə sıradan çıxmış döyüş texnikalarının ümumi sayı 150-yə çatır. Burada 57 zirehli maşın (o cümlədən tanklar, piyadaların döyüş vasitələri və sair), 30 uzaqmənzilli atəş vasitəsi (məsələn, haubitsalar, "Toçka-U", "Smerç" və "İsgəndər-M" raketlərinin qalıqları), 49 nəqliyyat vasitəsi, 2 qoşqu tipli qurğu və 42 adda silah və döyüş sursatı sərgilənir.

**Musa BAĞIRLI,**
**"Respublika".**

k nəsillərə öz tari- uğurlarını yadda xlamaq üçün bir ənbə yaradır, həm müharibənin ne- ağır və fədakarlıq əb edən bir pro- s olduğunu gös- ərək, sülhün və hlükəsizliyin nə dər dəyərli oldu- nu vurğulayır. rkda nümayiş et- ilən hərbi qənimətlər Azər- ycan Ordusunun yüksək pe- karlığını və müasir hərbi po- nsialını əks etdirir. Bu, eyni za- anda illərlə davam edən işğal rasətinə son qoyulmasının, ynəlxalq hüququn bərpa olun- asının və Azərbaycanın öz su- ren hüquqlarını təmin etməsi- n göstəricisidir.

Hərbi Qənimətlər Parkı tarixə rilən bir dərs və gələcəyə ötü- ən bir mesajdır. Azərbaycan üharibə istəmir, amma öz haq- ı qorumağa hər zaman qadir- . Bu parkda sərgilənənlər bir ha göstərir ki, sülh və sabitlik ün ilk növbədə ədalət bərpa unmalıdır. Bu baxımdan, Hərbi nimətlər Parkı Azərbaycan xal- ının qürur mənbəyi olmaqla yana- eyni zamanda gələcək nəsilləri təndaşlıq ruhunda tərbiyə etmək, ların tarixə olan bağlılığını güc- ndirmək məqsədi daşıyan əhə- yyətli məkandır.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**